Məhəmmədli Daşqın Heydər oğlu

# AZƏRBAYCAN RESPUBLİKASININ ZAQATALA İNZİBATİ RAYONUNUN KİTABXANA-İNFORMASİYA İNFRASTRUKTURU

Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan inzibati rayonlar içərisində (Şəki, Balakən, Qəbələ, Qax, Oğuz, Zaqatala) Zaqatala inzibati rayonunun xüsusi yeri vardır. Zaqatala rayonu Azərbaycan Respublikasının şimal-qərbində, Böyük Qafqaz sıra dağlarının cənub yamacları boyunca və Qanıx-Əyriçay vadisində yerləşir. Cənubdan Gürcüstan Respublikası, şimaldan Dağıstan Respublikası, qərbdənvə şərqdən Azərbaycan Respublikasının Balakən və Qax rayonları ilə həmsərhəddir. Mərkəzi Zaqatala şəhəridir. Şəhər dəniz səviyyəsindən 535 metr hündürlükdə, Azərbaycan Respublikasının paytaxtı olan Bakı şəhərindən 445 km aralıda, Tala çayının sahilində, Yevlax-Balakən şossesi yolunun üzərində, nəhəng İpək yolunun üstündə, vaxtı ilə Şərqin ən böyük ticarət mərkəzlərindən (bazarlarından) olan "Əskibazarın" (yer adı tamamilə öyrənilməmişdir) 25-30 km-də, Böyük Qafqaz silsiləsinin cənub ətəyində yerləşir. [10, s.39].

Zaqatala inzibati rayonu 1830-cu ildə təşkil edilmişdir. Zaqatala rayonunun ümumi sahəsi 1348 km-dir. Ərazisi dağlıq və aran hissədən ibarətdir. Rayonun ərazisindən 7 çay axır: Qanıx çay (Alazan), Tala çay, Katex çay, Muxax çay, Bəkməz çay və s. [11, s.49].

Zaqatala 1840-cı ildən şəhər adlandırılmışdır. 1803-cü ildə Zaqatala qəzası Rusiyanın tərkibinə daxil olmuşdur. Zaqatala sözünün yaranmasına dair (etimologiyaya görə) bir neçə rəvayət vardır. Müasir Zaqatala adı Sakatala (Sak düzü) adının dəyişilmiş formasını təşkil edir. E.ə. VII əsrin əvvəlində Kimmer-Skit dalğaları ilə Ön Asiyaya düşmüş sak tayfaları Albaniyanın ərazisində də məskən salmışlar və bu ərazi Kür çayının sağ sahilindən (Kür-Araz qovşağı daxil olmaqla) Qafqaz dağ ətəklərinə qədərki ərazini tuturdu. Bu dövrdə Zaqatala rayonu qədim Qafqaz Albaniyasının ayrılmaz hissəsi olmaqla onun qərbində yerləşirdi. [13,s.99].

Zaqatala Rayon ərazisində 252 mədəniyyət obyekti (mədəniyyət evi, klub, kitabxana, muzey, Tarix Mədəniyyət Qoruğu, Tarixi abidə və s.) var. "Aygün" müstəqil televiziya şirkəti 1993-cü ildən fəaliyyətə başlayıb. "Aygün" televiziyası təkcə Zaqatala rayonunda deyil, o cümlədən Şəki, Qax və Balakən rayonlarında da yayımlanır. "Aygün" televiziyasında yayımlanan verilişlərdə vətənpərvərlik, dövlətçilik, milli adət-ənənələrimiz, rayonda, eləcə də bölgədə aparılan tikinti-abadlıq və quruculuq səliqə-səhman işləri, sosial problemlərin həlli istiqamətində görülən işlər üstünlük təşkil edir. [8, s.98].

"Zaqatala" qəzeti redaksiyası 1923-cü ilin mart ayından fəaliyyətə başlamışdır. İlk əvvəllər "Zaqatala kəndlisi" adlanan qəzet sonralar "Kolxozun səsi", "Bolşevik kolxozu uğrunda", "Qırmızı bayraq" və s. başlıqlarla fəaliyyət göstərmişdir. 1991-ci ilin oktyabr ayından isə "Zaqatala" adı ilə fəaliyyətini davam etdirir. [6, s.33].

Ərazinin zəngin təbii landşaftı və toxunulmamış meşə sahələri turizmin inkişafı üçün əlverişli perspektivlər aça bilər. Ərazidə həm respublika vətəndaşlarının, həm də xarici vətəndaşların maraqlı istirahət mənbəyi ola biləcək əvəzsiz təbiət guşələri (Qəbizdərə, Honzoqor dağı, Xalaxı gölü, Moorcay, Malarasa aşırımı və s.) mövcuddur. Zaqafqaziyada təşkil edilmiş ilk qoruq sayılan (1929-cu il) və çox zəngin flora və faunaya malik olan Zaqatala Dövlət Qoruğu (ərazisi 47.4 min ha.) ekoturizmin inkişafı üçün əvəzsizdir.

Rayonun ərazisi mürəkkəb coğrafi relyefə malikdir. Alazan vadisindən başlayaraq 40-50 kilometr məsafədə hündürlük 350 metrdən 3000 metrə qədər yüksəlir. Bu da ərazidə yaşayan heyvanların növ müxtəlifliyinə və onların artıb çoxalmasına əlverişli şərait yaradır. Odur ki, respublikada mövcud olan 340 quş növündən 104-ü, 92 növ məməlidən 42-ı rayon ərazisində mövcud arsallar üzrə yayılmışdır. Rayonun bioekoloji xüsusiyyətləri, o cümlədən Zaqatala meşə təsərrüfatının Car, Tala və Muxax meşəçiliklərinin orta və yuxarı meşə qurşaqları, eləcə də yay otlaqlarının bir hissəsi daxil olmaqla 30 min hektar ərazidə özəl ovçuluq təsərrüfatı yaradıla bilər. Bu təsərrüfat həmçinin həmin ərazilərdə geniş yayılmış dərman bitkilərinin tədarükü və emalı ilə də məşğul ola bilər. Dərman bitkilərinin tədarükü və emalı sənayesinin inkişafı üçün rayonun ərazisində 1000-ə qədər bitki növü, o cümlədən 50-ə qədər dərman bitkiləri mövcuddur. Əhalisi 2017-ci ilin məlumatına görə 126900 min nəfərdir. [10, s.79].

Zaqatala Mərkəzi Kitabxanasının Əsası 1923-cü ildə qoyulmuşdur. Kitabxana ötən dövr ərzində xalqın maariflənməsində, ölkənin elmi, iqtisadiyyatı, mədəniyyətin və təhsilinin inkişafında öz müstəsna rolunu nümayiş etdirmiş, cəmiyyətin mühüm informasiya infrastrukturu kimi onun intellektual potensialının inkişafına səmərəli təsir göstərən zəngin bilik xəzinəsinə çevrilmişdir. Rayon Mərkəzi kitabxanası Azərbaycanın dahi şairi Nizami Gəncəvinin adını daşıyır. Bütün Azərbaycanda olduğu kimi Zaqatala rayonunda da 1974-cü ildə kitabxananın mərkəzləşdirilməsi işi həyata keçirildi. 1976-cı ildə Zaqatala MKS-i formalaşmış, 79 kitabxana filialı və 1 rayon Mərkəzi kitabxanası fəaliyyət göstərməyə başlamışdır. [13, s.88].

Zaqatala rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində (MKS) 1 Mərkəzi Kitabxana və 45 kitabxana filialı fəaliyyət göstərir. MKS üzrə 108 nəfər kitabxanaçı çalışır ki, onlardan 23 nəfər ali, 8 nəfər ali ixtisas, 37 nəfər orta ixtisas, 40 nəfər isə ümumi orta təhsillidir.

2018-ci ildə MKS üzrə kitab fondu 372.8 (latın 302.1, kiril 2160.4, digər dillərdə 33.3, elektron nəşrlər 601) nüsxə, oxucuların sayı 22016, kitabxanaya gəliş 106589, kitab verilişi 226347 nüsxə olmuşdur. MKS-nin ümumi kitab fonduna 3.9 nüsxə ədəbiyyat daxil olmuş, 16.8 nüsxə ədəbiyyat fonddan çıxarılmışdır. [16].

MKS üzrə cəmi kompyuterlərin sayı 41 ədəddir. MKS-in **zaqatala.cls.az**; **E-mail:** **zaqatala-mks**@mail.ru vebsaytları fəaliyyət göstərir.

Mərkəzi Kitabxana üzrə işçilərin ümumi sayı 28 nəfər təşkil edir. Onlardan 7 nəfər ali, 6 nəfər ali-ixtisas,10 nəfər orta-ixtisas,3 nəfər isə ümumorta təhsillidir. ZaqatalaMK-da aşağıdakı şöbələr fəaliyyət göstərir:

Komplektləşdirmə və kitabişləmə şöbəsi;
Metodika və biblioqrafiya şöbəsi;

Xidmət şöbəsi;
Uşaq şöbəsi;
Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi;
İnformasiya-resurs şöbəsi.

2011-ci il oktyabr ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 162 №-li qərarına əsasən "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidlər"nə dair təlimatına görə respublika kitabxanalarında struktur dəyişiklikləri yarandı. Bu təlimata əsasən müasir şəraitdə kitabxana oxucu xidmətinin müasir informasiya texnologiyası ilə təmin edilməsi sahəsində xeyli tədbirlər görülmüşdür. Kitabxanaların internet şəbəkəsinə qoşulması, oxucular üçün ümumaçıq informasiya məkanının formalaşdırılması, xidmət prosesində elektron sənədləri və kataloqları, elektron poçtu, CD ROM və s. informasiya texnologiyasının tətbiqini təmin edən tədbirlər həyata keçirilir.

Kitabxanalar xalqımızın tarix boyu yaratdığı sərvətdir. Kitabxananın fəaliyyətinin əsas məqsədi oxucu tələbatını ödəməkdən ibarətdir. Rayonun kitabxanaçıları öz qarşılarında duran vəzifələri yerinə yetirmək üçün bütün imkanlardan istifadə edirlər. Kitabxananın əməkdaşları tez-tez beynəlxalq və Bakı şəhərində keçirilən müxtəlif treninq və konfransların iştirakçısı olmuşlar.

2009-cu ilin noyabr ayının 16-20-də Zaqatala rayon MKS-nin direktoru Gülniyar Məmmədova Moskvanın "Erşavo" sağlamlıq mərkəzində "İnformasiya texnologiyası, komputer sistemi və kitabxanalar üçün materiallar" mövzusuna həsr olunmuş "İLBCOM-2009" 13-cü Beynəlxalq konfrans sərgisində müxtəlif seminarlarda ("Kitabxana menecmenti və kitabxana innovatikası", "Müasir dövrdə ekologiya informasiyası", "Avtomatlaşdırılmış kitabxana sistemində "İRBİS-64" proqramından istifadə və təkminləşdirilməsi") iştirak etmişdir. Həmin konfransda Zaqatala Mərkəzi kitabxanası Yeni İnformasiya Texnologiyaları ilə Elektron kitabxanaların İşçiləri və İstifadəçilərinin Beynəlxalq Asossasiyasının üzvü seçildi.

1 aprel 2014-cü il tarixində MKS-nin direktoru Gülniyar Məmmədova və informasiya-resurs şöbəsini müdiri Almaz Məmmədova "Kitabxana-informasiya" sahəsində əldə edilmiş nəzəri və təcrübi nəaliyyətlərin tətbiqi" mövzusunda ADA Universiteti kitabxanasının I Beynəlxalq Elmi konfransında iştirak etmişdirlər. [16].

19 noyabr 2015-ci il tarixində MKS-nin direktoru Gülniyar Məmmədova və kitabxananın informasiya texnologiyaları üzrə mütəxəssisləri Leyla Məmmədova və Ülkər Hacıyeva Zaqatalaya həsr olunmuş "Bölgələrdən paytaxta" layihəsində iştirak etmişdilər. Həmin layihədə kitabxanamız öz kitab sərgiləri ilə iştirak etmişdir.

Kitabxana son 10 il ərzində müxtəlif səpkili çoxsaylı kütləvi tədbirlər keçirmişdir. Son 10 il ərzində kitabxananın uğurları 2 yeni şöbənin açılması, müxtəlif mövzularda metodiki vəsaitlərin hazırlanması, 2006-cı ildə Zəlimxan Yaqubla görüş, həmçinin yerli yazarlardan olan Mustafa Camal, Həşim İsmayılov, Aşıq Valeh, Vəli Hüseynov, Şirin Qəlbinur və başqaları ilə oxucuların görüşləri, kecirilmişdir. [16].

Ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə keçirilmiş Kitab bayramları artıq ənənə halını almış, 2015-ci ildə VII kitab bayramı keçirilmişdir. Mədəniyyət və Turizm Nazirliyinin, Rusiya Federasiyası Mədəniyyət və Kinematoqrafiya üzrə Federal Agentliyinin, Rusiya Federasiyası İncəsənət, Mədəniyyət və Turizm İşçilərinin Yenidən Hazırlanma Akademiyasının və Zaqatala Rayonu İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Ekoloji tərbiyə və ekoloji problemlər: kitabxanaların rolu" mövzusunda beynəlxalq konfrans ,"12 dekabr yaddaşımızda necə yaşamalı və yaşadılmalıdır" mövzusunda elmi-praktik konfrans (2008), "Kitab və müəllif hüquqları günü" adlı tematik gecə (2009) keçirilmiş, "Zaqatala böyük vətən müharibəsində" ,"Zaqatalalıların şəxsi kitabxanaları" adlı məlumat topluları (2011) yaradılmışdır. "Zaqatala ölkə mətbuatında" (2011), "Zaqatala rayonunun ədəbi mühiti" (2011) adlı məlumat bülletenləri hazırlamışdır. [15, s.111].

Kitabxanalara daha çox oxucu cəlb etmək məqsədilə Rayon Mədəniyyət evində "Mütaliə günü" keçirilmişdir (2011). 2012-ci ilin "İdman ili" elan olunması ilə əlaqədar kitabxanada yerli idmançılarla oxucuların görüşü təşkil olunmuşdur. 2013-cü ildə "Uşaq Hüququ aylığı" münasibətilə "Mənim hüquq və vəzifələrim" adlı inşa müsabiqəsi keçirilmişdir.

2014-cü ildə Zərifə Əliyevanın doğum günü münasibətilə "Azərbaycan qadınının həyat yolu" adlı konfrans, "Laylalı, bayatılı axşamlar" adlı ədəbi-bədii gecə keçirilmişdir.

2015-ci ildə 2 Aprel Beynəlxalq Uşaq Kitab Günü münasibəti ilə "Kitab nəsillərin vəsiyyətidir" mövzusunda ədəbi-bədii gecə, Heydər Əliyev mərkəzində Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilliyi Aparatından Mərkəzi kitabxanaya 2015-ci ildə daxil olmuş yeni ədəbiyyatın təqdimat mərasimi, "Dövlət Müstəqilliyinin 24-cü ildönümü"nə həsr olunmuş şeir müsabiqəsi, "Kitabi-Dədə-Qorqud" dastanının alman dilindən tərcümə edilməsinin 200 illik yubileyi ilə əlaqədar "Qopuzdan-saza" adlı ədəbi-bədii gecə keçirilmişdir. [16].

Kitabxanada soraq biblioqrafiya aparatı yaradılmış, Ölkəşünaslıqla (diyarşünaslıqla) bağlı sərgi və kartoteka hazırlanmışdır. Əlamətdar və tarixi günlər, görkəmli şəxsiyyətlərin yubileyləri ilə bağlı kartotekalar təşkil edilmişdi.

Kitabxanalarda oxuculara soraq-biblioqrafiya xidmətinin təşkilinə və biblioqrafik icmalların hazırlanması və keçirilməsinə nəzarət edilmişdir. "Azərbaycanşünaslıq" kartotekanı təşkil etmişdir. ..Baş biblioqraf "Diyarşünaslıq", " Zaqatalanın görkəmli şəxsiyyətləri", "Zaqatalanın təbiəti və turizmi"."Zaqatalanın ədəbi mühiti" adlı qovluqlar hazırlamış, ən zəruri materiallar bu qovluqlarda toplanmışdır.

Kitabxanada 2012-ci ilin may ayından başlayaraq məqalələrin sistemli kartotekasını, diyarşünaslıq və mövzu kartotekasını ""İrbis -64" proqramında işləmişdir. Bu proqramda "Elektron kartoteka,","Diyarşünaslıq",və "Diyarşünaslıq kitablar" bazalarında 8000-dən artıq kartoteka yazmışdır. Hər il müntəzəm olaraq "Zaqatala ölkə mətbuatında" biblioqrafik göstəricilərini və digər metodiki vəsaitləri tərtib etmişdir. "Zaqatala turizm diyarıdır"

guşəsini təşkil etmişdir.

2015-ci ildə Mərkəzi kitabxana əsaslı təmir olunmuş, yeni inventar avadanlıqları ilə təmin olunmuşdur. Hal-hazırda Mərkəzi Kitabxanada 17 komputer, filial kitabxanalarında isə 21 komputerdən istifadə olunur. Kitabxanada 2012-ci ildən 2 yeni şöbə-informasiya-resurs və kitabxana-biblioqrafiya prosseslərinin avtomatlaşdırılması şöbəsi yaradılmışdır. Həmin ildən kitabxanada İRBİS-64 proqramı tətbiq olunur. İRBİS-64 proqramında 12988 adda 123262 kitabın elektron kataloqu yaradılmışdır. [15, s.119].

2015-ci ilin ikinci yarısından kitabxanalarda yeni proqram-ALİSA proqramını tətbiq olunur. Bununla əlaqədar kitabxana-biblioqrafiya prosseslərinin avtomatlaşdırma şöbəsi işini bu proqram əsasında qurur. Kitabxamızda yaradılmış www.zaqatala. cls.az web saytına İnformasiya-resurs şöbəsi tərəfindən nəzarət olunur, operativ yenilənir, əlavə və dəyişikliklər edilir. Kitabxana facebook və instagram saytları fəaliyyətə başlamışdır. Gənclərimizin ən cox istifadə etdiyi bu saytlar vasitəsi ilə kitabxanamızda olan kitab, qəzet, jurnal məqalələri , həmçinin kitabxanamızda baş verən yeniliklər haqqında oxuculara məlumatlar verilmişdir. Bu saytlar vasitəsilə oxucu sorğularının ödənilməsi həyata keçirilir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI


1.Azərbaycan Milli Ensiklipediyası:Azərbaycanın xüsusi cildi (Azərbaycan dilində)/Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi. Bakı,2007, 884 s.

3.Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafi Dövlət Proqramı (2004-2008-ci illər) // Azərbaycan, 2004, 11 fevral.

3.Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafi "Dövlət Proqramı". Bakı: Nurlar, 2009, 184 s.

4.Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafi üzrə Dövlət Proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal, 2008, № 2, s.6-29.

5.Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II c./ Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı: Nurlar,2007, 820s.

6.Azərbaycan regionlarının sosial-iqtisadi inkişafi: Dövlət Proqramının həyata keçirilməsinə dair materiallar: biblioqrafik göstərici /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi., M.F.Axundov ad. Azərb Milli Kitabxanası; burax. haz. M.Vəliyeva, M. İbrahimova; red. G. Səfərəliyeva. I buraxılış.- Bakı: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası. Bakı, 2007, 201 s.

7.Azərbaycan regionlarının sosial-iqtisadi inkişafi: Dövlət Proqramının həyata keçirilməsinə dair materiallar: biblioqrafik göstərici /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi., M. F. Axundov ad. Azərb Milli Kitabxanası; burax. haz. M. Vəliyeva, M. İbrahimova; red. G. Səfərəliyeva II buraxılış. Bakı: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası, 2009, 345 s.

8. Azə rbaycan Respublikası Dövlə t Statistika Komitə si. Azə rbaycanı n statistik göstə ricilə ri 2009:statistik mə cmuə /Azə rb. Resp. Dövlə t Statistika Komitə si. Bakı : Sə da, 2009, 767 s.

9.Azərbaycanın regionları / Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2010, 652 s.

10.Azərbaycanın regionları / Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2011, 768 s.

11.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Bakı: Bakı Universiteti nəşriyyatı,2006, 338 s.

12.Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi (Dərslik. 3 hissədə. III c. XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi). Bakı: BDU, 2010, 434 s.

13.Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 clddə. II c. XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işi). Bakı, 2007, 552 s.

14.İsmayılov N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. 2010,№1, S. 67-78.

15. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, 88s.

16. Zaqatala rayon MKS-in 2000-2018-ci il hesabatları


### Библиотечно-информационная инфраструктура Загатальского административного района Азербайджанской Республики


**РЕЗЮМЕ**

В статье представлен научно-теоретический анализ истории, культуры, географического рельефа и библиотечно-информационной инфраструктуры Загатальского административного района Азербайджанской Республики.



***Ключевые слова:*** *Шекинско-Загатальский экономический район, библиотека, документ, читатель, информация, Закатала, фонд, библиотекарь.*


### Library-information infrastructure of the Zagatala administrative region of the Republic of Azerbaijan


**SUMMARY**

The article is showen a scientific and theoretical analysis of the history, culture, geographical relief and library-information infrastructure of the Zagatala administrative region of the Republic of Azerbaijan.



***Key words: Shaki-Zagatala economic region, library, document, reader, information, Zaqatala, fond, librarian, subscription***

***Rə yçilə r: professor Xə lil İ smayı lov, professor Bayram Allahverdiyev***